## HƏYAT VƏ FƏALİYYƏTİ



Orxan Fikrət oğlu Sadıqov (Orxan Fikrətoğlu) 1966-cı il martın 21-də Bakı şəhərində anadan olub. 1983–1991-ci illərdə Moskva şəhərindəki Dünya Ədəbiyyatı İnstitutunu bitirmişdir.

Əmək fəaliyyətinə 1983-cü ildə kinoda işıqçı kimi başlayıb. Daha sonra müxtəlif dövrlərdə C. Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası, Dövlət Kino Komitəsi, AzərTelefilm və "Günay" qəzetində baş redaktor vəzifələrində çalışıb. Eyni zamanda Dövlətlərarası MİR Teleşirkətinin direktor müavini, Mozalan Satirik Kinojurnalının direktoru və ANS Teleşirkətinin baş icmalçısı olub. Bakı Slavyan Universitetinin Jurnalistika və Azərbaycan filologiyası fakültəsinin müəllimi, ATV telekanalında veriliş aparıcısı olmuş, hazırda isə İctimai televiziyada çalışır.

Orxan Fikrətoğlu "Mənə bir məsləhət verin" adlı ilk hekayəsi 1981-ci ildə "Kirpi" jurnalında çap olunub. Sonrakı dövrlərdə "Milad gecəsi", "Borc", "Ögey", "Mixək böcək", "Adsız hekayə", "Təxti-şəcərə və Muradəlinin itmiş eşşəyi", "Çiçəklənən adamın tarixçəsi", "Cangüdən", "Alməmməd kişi", "Axrestomatik əhvalat", "Xrestomatik əhvalat", "İtki", "Xilaskar", "İthaf", "Avara", "Şeytan çərxi", "Səhər", "Albalı ağacı", "Saat birdən reportaj", "Fədai", "Sinqapur şamı" və digər onlarla hekayəsi povest və publisistik yazıları müxtəlif dövri mətbuatda nəşr olunub. Eyni zamanda "Dünya haqqında upuzun nağıl" (1988), "Səhər" (1991), "Şirvan şəşəngisi" (1993), "Ağ-qara hekayələr" (1993), "Şəhidlər" (1994), "Üçüncü günün adamı" (1998), "Köçərgi" (1999), "100 ilin kitabı" (2001), "Vaxt" (2008), "Suçlu Mələk" (2010), "Ölü mətn" (2011), "Tək" (2014), "Kinopovestlər" (2016), "Alternativ kino" (2017), "Tülu" (2019) və "Kinocizgilər" (2024) kimi onlarla bədii və publisistik kitabın müəllifidir.

Orxan Fikrətoğlu onlarla bədii filmin ssenarisini hazırlamışdır. Onun ssenariləri əsasında "Ümid", "Solaxay", "Səs", "Ağ kətan dakı adam", "Qız qalası", "Ərazi", "Yalan", "Kəpənək", "Borc" adlı bədii və sənədli filmlər çəkilib.

Onun əsərləri İran, Türkiyə, Bolqarıstan, İsveç və digər ölkələrdə çap edilmişdir. "Yeddi" romanı Almaniyada mükafata layiq görülüb, hekayələri isə OKSFORD Universitetinin dərsliklərinə daxil edilib. Bir sıra Respublika mükafatlarının laureatıdır.

Hekayələri "Dünya Nəsr Antalogiyasına" seçilmişdir. "TAS", "Qıyığın ölümü" və "Şəkilçi və şəkilçi" pyesləri ölkə teatrlarında səhnələşdirilmiş, ssenariləri əsasında çoxsaylı filmlər çəkilmişdir.

2023-cü ilin dekabrından Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA) baş direktorunun vəzifəsini icra etməyə başlayıb. 2025-ci ildən Mədəniyyət nazirinin müşaviridir.

O.Fikrətoğlu 1995-ci ildə "Beynəlxalq Yalta Kinofestivalı"nın birinci mükafatına, 1998-ci ildə Prezident təqaüdünə, 2001-ci ildə "Zirvə" mükafatına, 2003-cü ildə "Çingiz Mustafayev" adına mükafata, 2005-ci ildə UNICEF-in xüsusi mükafatına, 2006-cı ildə Azərbaycan Mətbuat Şurasının "Həqiqətə xidmətə görə" mükafata, 2008-ci ildə "Qızıl Qələm" media mükafatına, IV Türk Dünyası Sinema Günləri təşkilatının "Türk dünyasının kinosunda xidmətinə görə" mükafata, 2013-cü ildə M. Müşviq mükafatına, 2016-cı ildə Əməkdar incəsənət xadimi adına və BMT yanında Beynəlxalq

Avrasiya Mətbuat Fondunun fəxri diplomuna, 2018-ci ildə “Qızıl Pəri” mükafatına və 2019-cu ildə “Həsən bəy Zərdabi” adına Jurnalist Mükafatılarına layiq görülmüşdür.

Şair Fikrət Sadığın oğludur. Ailəlidir. Bir qızı var.

**Kitabları**

"Dünya haqqında upuzun nağıl", Bakı:"Gənclik", 1988.

"Səhər", Bakı: "Yazıçı",1991.

"Şirvan şəşəngisi", Bakı: "Yazıçı",1993.

" Ağ-qara hekayələr", Moskva: "Yunust",1993. (Rus dilində)

"Şəhidlər", Bakı:"Hərbi",1994.10000 tiraj (puplisistika)

"Üçüncü günün adamı", Bakı:"Prizident təqaütçülərinin nəşri",1998.

"Köçərgi", Tehran: "Üfüq", 1999. (Fars dilində)

"100 ilin kitabı"Bakı:"Elm və Təhsil", 2001.

"Vaxt"Bakı:"Elm", 2008.

"Suçlu Mələk"Daşkənd:"Muxabbet", 2010.

"Ölü mətn"Bakı:"Qanun", 2011.

"Tək", Bakı: "Elm və təhsil", 2014.

"Ölü Metn". İstanbul: "İz yayınları", 2015 (Türk dilində)

"Kinopovestlər". Bakı:"Elm və Təhsil", 2016.

"Kinocizgilər". Bakı, 2024